# "SAZAQ"




Elə ilin son günlərində ünvana bir dost hədiyyəsi gəldi. Yaradıcılığını sevə-sevə izlədiyim dəyərli qələm dostum Səyyad Aran mənə və oxucularına bir növ Yeni il hədiyyəsi bağışladı. Bu hədiyyə hər kəs üçün yaddaqalandı. Çünki o kitabdı. Özü də Səyyad Aranın 2016-cı ilin son günlərində işıq üzü görən "Sazaq" kitabı!

"Sazaq" "Vektor" nəşriyyatında Elçin İsgəndərzadənin redaktorluğu ilə işıq üzü görüb. Kitabda Səyyad Aranın 6 povesti toplanıb. Kitabın tərtibatından və onun nəşr keyfiyyətindən hiss olunur ki, bu "Sazaq" bizi üşütməyəcək. Biz oxucular bu "Sazağ"ın istisində Səyyad Aranın söz dünyası ilə baş-başa qalacağıq. Mən bir oxucu olaraq qələm dostumu "Sazağ"ın dünyaya gəlişi münasibətilə təbrik edir, ona Yeni ildə can sağlığı və daha böyük yaradıcılıq uğurları diləyirəm.

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.-2016.-30 dekabr.-s.3.